Yeni kitablar

# "Atatürkün dedikləri" Azərbaycan dilində

**Azərbaycan Dillər Universitetinin (ADU) rektoru akademik Kamal Abdullanın təşəbbüsü ilə Türkiyənin tanınmış yazarı Akıl Aksanın "Atatürk deyir ki..." adlı kitabı oxuculara təqdim olunub. Kitabda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün müxtəlif dövrlərdə etdiyi çıxışlar və İstiqlaliyyət Mübarizəsinə verdiyi böyük töhfələr əks olunub. Kitab "Sim-sim" nəşriyyatında çap olunub.**

Kitabda Atatürkün azadlıq uğrunda verdiyi mübarizə, milli hədəfləri və dəyərli fikirləri geniş şəkildə təqdim edilir. Bu əsər Atatürkün fikirləri, ideyaları və mübarizəsi haqqında daha dərindən məlumat almaq istəyənlər üçün əhəmiyyətli mənbədir. Kitab Atatürkün irsini və onun müasir Türkiyənin qurulmasına verdiyi töhfələrin dəyər və mahiyyətini dərindən anlamağa kömək edir.

Kitabı Azərbaycan türkcəsinə ADU-nun Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri Cəlal İbrahimli çevirib. Qeyd edək ki, Cəlal İbrahimli Türkiyənin Egey Universitetində təhsil alıb, "Mikayıl Müşfiq", "Dünyaya doğan günəş", "Bilgə xan sözləri" və başqa kitabların müəllifidir.

***N. ƏHMƏDOV***
***XQ***

